**Bakı şəhərində keçiriləcək «Bakı-İslam Mədəniyyətinin Paytaxtıdır» adlı beynəlxalq tədbirə hazırlıq haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Beynəlxalq mədəni əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə ölkədə aparılan davamlı siyasətin nəticəsi olaraq, İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin V Konfransında Bakı şəhəri 2009-cu il İslam Mədəniyyəti Paytaxtı elan edilmişdir.

Bakı şəhərində keçiriləcək «Bakı - İslam Mədəniyyətinin Paytaxtıdır» adlı beynəlxalq tədbirin xüsusi əhəmiyyətini nəzərə alaraq, habelə bu tədbirin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. «Bakı - İslam Mədəniyyətinin Paytaxtıdır» adlı beynəlxalq tədbirə hazırlıq işlərinin aparılması üçün 2008-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 1 000 000 (bir milyon) manat məbləğində vəsait Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən vəsaitin ayrılmasını təmin etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

Bakı şəhəri, 27 avqust 2008-ci il
3016